AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

6 YANVAR 2019-cu il BAZAR № 03 (6330) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

Daxili və xarici siyasətin vəhdəti uğurların davamlılığını təmin edir

Dövlət başçısı deyib: "İqtisadiyyatın rəqabətliliyinin artırılması üçün biz bundan sonra da fəal işləyəcəyik. Bildiyiniz kimi, Azərbaycanın bu sahədəki reytinqləri ən yüksək səviyyədədir"

Azərbaycan regionları 2018-ci ildə də öz quruculuq və abadlıq işləri ilə böyük tikinti meydanını xatırladır. Hər tərəfdə müasir iqtisadi infrastrukturlar, yeni sosial obyektlər yaradılır, mövcudları əsaslı təmir edilib. Ölkədə həyata keçirilən davamlı iqtisadi islahatlar və reallaşdırılan layihələr öz növbəsində davamlı tərəqqiyə xidmət edir. Bir sözlə, dövlət hərtərəfli inkişafa nail olmaq üçün bütün lazımi tədbirləri görür. Həyata keçirilən strateji inkişaf kursu və iqtisadi modelin uğurları sübut edir ki, Azərbaycanın böyük və gözəl gələcəyi vardır, artıq bu, danılmaz bir gerçəklikdir. Bu gün ölkə həyatının bütün sahələrində, sözün əsl mənasında, intibah baş verib. Azərbaycanın uğurlu yüksəlişi və gələcək illərdə də dayanıqlı inkişafı dönməz bir reallıqdır. Bu davamlı tərəqqidə regionların sosial-iqtisadi Dövlət proqramlarının xüsusi rolu vardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Dövlət Proqramının bu ilə aid hədəflərinə uğurla çatıldığı barədə deyib: "Deməliyəm ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır".

Regionların sosial-iqtisadi inkişafının iki Dövlət Proqramı uğurla icra edilib, üçüncüsü də bu il müvəffəqiyyətlə yekunlaşmaq üzrədir. Nəticə göz önündədir, Azərbaycanın bütün bölgələri hərtərəfli inkişaf edir. Ən təqdirəlayiq hal odur ki, qeyri-neft sektorunun prioritet elan edilməsi və bu sahəyə kifayət qədər sərmayə yönəldilməsi sayəsində sosial-iqtisadi sahədə çox böyük nailiyyətlər əldə edilməkdədir. Belə ki, bu gün Azərbaycan iqtisadiyyatının artıq neft sektorundan asılılığı daim azalır və real sektorda Ümumi Daxili Məhsul istehsalı sürətlə artmaqdadır. Dövlət hərtərəfli tərəqqisinə yönələn bu uğurlu siyasəti davam etdirməkdədir. Yeni infrastruktur layihələrinin həyata keçirilməsi də regionların inkişafına güclü təkan verib. İqtisadiyyatda çoxşaxəli inkişafa nail olmağın nəticəsidir ki, Ümumi Daxili Məhsulun artımı davamlı hal alıb.

Dünya iqtisadiyyatında enerji təchizatının əhəmiyyəti daim artır. Buna görə də təbii mənbələrə malik olmayan dövlətlər özlərinə bu sahədə etibarlı tərəfdaş axtarırlar. Enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq genişləndikcə, ölkənin siyasi nüfuzu və iqtisadi qüdrəti də artır. Azərbaycan rəhbərliyi bu sahədə siyasəti elə yürüdür ki, ölkə iqtisadiyyatı təkcə karbohidrogen ehtiyatından asılı olmasın. Neft və qaz sektorundan gələn gəlirlər real sektora yönəldilərək hərtərəfli inkişafa, sosial rifaha zəmin yaradır, çünki əks-təqdirdə ölkə zəruri istehsal məhsullarına görə digər dövlətlərdən asılı olar. Bu hədəfə çatmaq üçün beşillik Dövlət proqramları dəqiq mexanizmlərlə icra edilir. Beləliklə, Azərbaycan çoxşaxəli iqtisadiyyat yoluyla uğurla gedir, yəni çoxsahəli təsərrüfata malik ölkələrdəndir. Həyata keçirilmiş neft-qaz sektoruna aid transmilli layihələr ölkənin real iqtisadiyyatını inkişaf etdirməklə yanaşı, olduqca geniş regional əməkdaşlıq üçün də möhkəm zəmin olub. Təsadüfi deyil ki, məhz Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri müvəffəqiyyətlə istismara verilməsi ilə Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol XXI əsrin Transanadolu (TANAP) və Transadriatik (TAP) qaz kəmərləri layihələrinin, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin reallaşmasına əsas zəmin olmuşdur. TANAP Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində mühüm rol oynayacaq nəhəng transmilli layihədir. Azərbaycanın isə 100 illik qaz ehtiyatı vardır. Ölkəmizin beynəlxalq əməkdaşlıqda apardığı siyasətin mahiyyəti budur ki, tərəflər arasında rəqabətə, yaxud da ki, qarşıdurmaya yol verilməsin, əksinə, burada maksimum əməkdaşlıq olsun. Çünki səmərəli əməkdaşlıq, qarşılıqlı mənafelərin təmini həm sosial-iqtisadi inkişafın, həm də rifah halının yüksəlişinin və siyasi stabilliyin əsasıdır. Azərbaycan əməkdaşlığa məhz bu dünyagörüşü ilə yanaşır. Nəticə kifayət qədər uğurludur. Ölkəmizin siyasəti çox açıqdır, xoşniyyətlidir, şəffafdır və bu siyasət ölkələri birləşdirməyə, qarşılıqlı inkişafa, maraqları ödəməyə, şəffaf münasibətlərə, bir-birinin daxili işlərinə qarışmamağa hesablanıb, ayırmağa yox. Bu gün ölkəmiz dünyanın önəmli enerji təchizatçısına çevrilir və neft strategiyası Azərbaycanın müstəqilliyinə, iqtisadi inkişafına mühüm töhfələr verir. Dövlətin iqtisadi cəhətdən müstəqil olması, təsərrüfat sahələrinin dominiant inkişafı, zəruri əmtəələri daxildə istehsal etməsi və məhsulların beynəlxalq standartlara uyğun olması, güclü ixrac potensialından da yüksək dərəcədə asılıdır. Azərbaycan zəngin təbii sərvətlərə malikdir. Mövcud iqtisadi potensialı dövriyyəyə səmərəli cəlb etmək üçün regionların sosial-iqtisadi inkişafı reallıqdır. Hərtərəfli tərəqqi məqsədilə müvafiq Dövlət proqramları qəbul edilmiş konkret mexanizmlərlə icra edilir, qarşıya çıxan bütün problem və məsələlərin həlli üçün müvafiq islahatlar davamlı surətdə həyata keçirilir. Ölkə rəhbəri İlham Əliyev davamlı aparılan islahatların çox müsbət iqtisadi nəticələr verdiyi barədə vurğulayıb: "2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır. Hesab edirəm, bu ilin doqquz ayının göstəriciləri deməyə əsas verir ki, biz istədiyimizə nail oluruq. İqtisadi göstəricilərə gəldikdə isə deməliyəm ki, bu ilin doqquz ayında bizim iqtisadiyyatımız, yəni, Ümumi Daxili Məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Bu göstərici Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb".

Ölkəmizin iki qitənin qovşağında mühüm nəqliyyat və ya tranzit məkanı olması Azərbaycan vasitəsilə Avratlantik bazara çıxmaq istəyən Asiya ölkələri üçün də olduqca cəlbedicidir. Bu prosesdə maraqlı dövlətlərin sayı getdikcə artır və tərəfdaşlar daha fəal iştirak edirlər. Göründüyü kimi, ölkəmiz dünya çapında mühüm iqtisadi mərkəz rolunu oynamaqdadır və bu mövqe getdikcə güclənir. Qloballaşan iqtisadiyyatda dünyada beynəlxalq siyasətin mərkəzində duran iqtisadi mərkəzlər, mühüm zəruri tranzit ölkələr və güclər artıq reallıqdır. Sadəcə öncədən bu prosesi görmək, daxili və xarici siyasəti ona görə formalaşdırmaq və bu istiqamətdə strateji inkişaf kursunu reallaşdırmaq yetərli siyasi iradə, cəsarət və prinsipiallıq tələb edir. Dövlət başçısı reallaşan müstəqil siyasət nəticəsində qarşıya qoyulan hədəflərə uğurla, tarixi nailiyyətlərlə çatıldığı barədə vurğulayıb: "Əlbəttə, bizim bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu, bizim tarixi nailiyyətimizdir".

(davamı 2-ci səhifədə)

Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması "Gate to Heaven" filminin prodüserlərinə etiraz məktubu ünvanlayıb

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması işğal olunmuş ərazilərimizdə çəkilən "Gate to Heaven" adlı filmin prodüserlərinə etiraz məktubu ünvanlayıb.

Bu barədə AZƏRTAC-a "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyindən məlumat verilib.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev məktubda bildirir:

Mən sizə Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ bölgəsində "Cənnətə aparan yol" filminin çəkilişində iştirak etdiyinizə görə yazıram.

Bu filmi "Cəhənnəmə aparan yol" kimi adlandırmaq daha doğru olardı, çünki çəkilişin aparıldığı ərazilər güc tətbiqi nəticəsində işğal edilib və tarixən orada yaşayan yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından məcburi qovulub.

Siz yəqin ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın ərazilərinin, Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonun işğal edilməsindən xəbərdarsınız. Ermənistanın işğal olunmuş ərazilərdə azərbaycanlı əhalinin etnik təmizləməsini həyata keçirməsi nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Hazırda Dağlıq Qarabağın azərbaycanlı icmasının 80 mindən çox üzvü 30 ildən çox müddət ərzində Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün vəziyyətində yaşamağa məcbur olmuşdur. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı adlanan kiçik bir şəhərin azərbaycanlı əhalisinə qarşı Ermənistan silahlı qüvvələri tərəfindən törədilən qanlı faciəni, oxşarı olmayan qırğını xatırlatmaq kifayətdir. Bir gecə ərzində - 1992-ci il fevralın 26-da 613 nəfər xüsusi qəddarlıqla öldürülüb, onlardan 106-sı qadın, 63-ü uşaq və 70-i yaşlılar idi. Bu faciə Xocalı soyqırımı kimi tanınıb və bu soyqırımı barədə ətraflı məlumatları müxtəlif veb-səhifələrdən, o cümlədən http://www.karabakh.az/ səhifəsindən əldə etmək olar.

BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi (1993-cü il) Dağlıq Qarabağ bölgəsini Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıyır və erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən təcili və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Bu tələb ATƏT, NATO, Qoşulmama Hərəkatı, Avropa Parlamenti, Avropa Şurası və digər beynəlxalq təşkilatların qətnamələri və qərarlarında təsdiqlənib.

Biz, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması, işğal olunmuş torpaqlarımızda film çəkilməsi təşəbbüsü ilə bağlı dərin təəssüf hissi keçirir, bu addımın artıq erməni hərbi işğalı nəticəsində dağıdılan bölgədə separatizmi və irredentizmi dəstəkləyəcəyini düşünürük. Utandırıcı haldır ki, sizin iştirak etdiyiniz layihə Ermənistanın hərbi təcavüzü nəticəsində məcburən öz torpaqlarından qovulmuş minlərlə azərbaycanlının əsas insan hüquqlarının (öz vətənlərində yaşamaq hüququ, mülkiyyət hüququ və s.) kobud şəkildə pozulmasına məhəl qoymur. Əslində, qeyd olunan filmin çəkilişində iştirak etməklə, siz, Azərbaycan ərazilərinin işğalının möhkəmlənməsinə şüurlu şəkildə kömək etmiş olursunuz.

Biz, münaqişənin tezliklə sülh yolu ilə həll olunması və azərbaycanlı icmanın Dağlıq Qarabağ bölgəsinə ən qısa zamanda qayıdışına inanaraq, sizi və bu təşəbbüsə qoşulan bütün şəxsləri Azərbaycan ərazilərinin işğalı, separatizmin dəstəklənməsi və təşviq edilməsini dayandırmağa çağırırıq. Əksinə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni icmasının azərbaycanlılarla birgəyaşayışına dair filmlərin çəkilməsi ideyası regionda sülh, sabitlik, tərəqqi və davamlı inkişafa töhfə verə bilər.

Biz Dağlıq Qarabağ ərazisində hazırda yaşayan insanların bu ərazilərdə baş vermiş ədalətsizliyi və qan töküldüyünü bildiyini və bəzilərinin buna şahid olmalarına rəğmən necə normal yaşadıqlarını həmişə sorğu edirik.

Sizi sülhü, ədaləti və inkişafı dəstəkləməyə və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmalarının əməkdaşlığı istiqamətində fəaliyyət aparmağa dəvət edirik.

AZƏRTAC

Türkiyəli müəllim:

Xocalı soyqırımı ilə bağlı heykəl düzəltmək mənəvi borcum idi

Türkiyənin Elazığ şəhərində yerləşən Fırat Universitetində sərgilənən Xocalı soyqırımı heykəli ziyarətçilərdə böyük maraq doğurur. Universitetin müəllimi Rüçhan Keçeci tərəfindən 2500 metal parçasından hazırlanan heykəl "Körpənin səssiz fəryadı" adlanır.

Rüçhan Keçeci AZƏRTAC-a açıqlamasında bildirib ki, bu abidəni düzəltməkdə məqsədi qeyri-adi bir sənət işi ilə diqqəti 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni vandallarının Azərbaycan xalqına qarşı törətdikləri soyqırımına yönəltməkdir. Bu nadir əl işində Xocalı soyqırımı zamanı süngü ilə kürəyindən vurulan günahsız azərbaycanlı qadının həyat dramı nümayiş etdirilir. Müəllif qeyd edib ki, layihəni həyata keçirərkən Xocalı soyqırımının dəhşətləri hər an gözləri önündə canlanıb.

Planları barədə danışan Rüçhan Keçeci deyib: "Bir neçə ildir ki, əl işlərimi Türkiyənin ayrı-ayrı şəhərlərində təşkil olunan sərgilərdə nümayiş etdirirəm. Növbəti sərgidə Xocalı soyqırımını əks etdirən heykəl də nümayişə çıxarılacaq. Bundan başqa, ən yaxın zamanlarda əl işlərimdən ibarət muzey qurmaq niyyətindəyəm. Şübhə etmirəm ki, dəmir qırıntılarının dili ilə ifadə etdiyim Xocalı soyqırımı heykəli bu muzeyin ən cəlbedici eksponatı olacaq".

Heykəltəraş "bu abidəni hansı hisslərlə düzəltdiniz" sualını belə cavablandırıb: "Ulu öndərlər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", Heydər Əliyevin "biz bir millət, iki dövlətik" kəlamları nəsillərə örnəkdir. Azərbaycana səfərlərimizin birində Qubadakı Soyqırımı Memorial Kompleksini ziyarət etdik. Orada gördüyüm dəhşətli mənzərə məni qəlbən çox incitdi. Keçirdiyim acı hisslər çoxdan bəri Xocalı soyqırımı ilə bağlı görmək istədiyim bu işə təkan verdi. Bir sözlə, bu abidəni ortaya çıxarmaq Azərbaycanın təəssübünü çəkən türkiyəli olaraq "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyasına dəstək məqsədilə mənim mənəvi borcum idi".

AZƏRTAC

Müdafiə naziri:

Azərbaycan Ordusunun döyüş qabiliyyəti ərazi bütövlüyümüzün təmin edilməsində əsas amillərdən biridir

Yanvarın 5-də Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də videobağlantı vasitəsilə cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqımıza təbrikini xatırladan müdafiə naziri bayram təbrikində ordumuza verilən qiyməti xüsusi vurğulayıb və şəxsi heyət qarşısında qoyulan konkret tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Müdafiə naziri qoşunların təmas xəttindəki hazırkı vəziyyəti təhlil edərək ötən il ərzində görülən işlər, qazanılan uğurlar və 2019-cu ildə yerinə yetiriləcək fəaliyyətlər barədə məlumat verib.

Azərbaycan Ordusunun bütün qoşun növlərinin və qisimlərinin fəaliyyətinə toxunan general-polkovnik Z.Həsənov müşavirə iştirakçılarından əsas diqqətin döyüş hazırlığı, qoşunların operativ, fasiləsiz və gizli idarə edilməsi, müdafiə sisteminin dayanıqlılığı, qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, komandir və rəis heyətinin peşəkarlığının daim artırılması, şəxsi heyətin təlim-tərbiyəsi, vətənpərvərlik və döyüş ruhunun möhkəmləndirilməsi, hərbi qulluqçuların sağlamlığı və döyüş təminatının digər aspektlərinə yönəldilməsini tələb edib.

Müdafiə naziri xüsusi vurğulayıb ki, dövlətimizin başçısının da bildirdiyi kimi, ölkəmizin güclü hərbi potensialı və Azərbaycan Ordusunun döyüş qabiliyyəti ərazi bütövlüyümüzün təmin edilməsində əsas amillərdən biridir.

General-polkovnik Z.Həsənov bildirib ki, əldə edilmiş uğurlardan arxayınlaşmamalı, qoşunların taktiki, operativ və strateji səviyyələrdə fəaliyyətləri daim təkmilləşdirilməli, şəxsi heyət düşmən üzərində üstünlüyümüzü qorumaqla hər an döyüş əməliyyatlarına hazır olmalıdır.

AZƏRTAC

Gəncədə Cavad xanın xatirəsi böyük ehtiramla anılıb

Gəncə xanlığının sonuncu hökmdarı, Ziyadoğlular nəslinin nümayəndəsi Cavad xanın xatirəsi böyük ehtiramla yad edilib. Anım mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, şəhər rəsmiləri, ziyalılar, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək qeyd edib ki, Cavad xan Vətənin azadlığı və istiqlaliyyəti uğrunda son anadək mərdliklə mübarizə aparıb, imperiya ordusunun əsgərləri ilə qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olub. Gəncə işğal olunduqdan sonra və Sovetlər dönəmində Cavad xanın adını anmaq yasaqlansa da, xalq qəhrəmanlarını unutmayb. Azərbaycan müstəqillik əldə etdikdən sonra Cavad xanın xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra addımlar atılıb. 2004-cü ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə Cavad xanın məzarı üzərində gördünüz bu tarixi üslubda türbə inşa olunub. Gəncənin ən qədim küçə və qəsəbəsinə onun adı verilib.

Professor Həsənbala Sadıqov çıxış edərək, tarixi faktları tədbir iştirakçılarının diqqətinə çatdırıb. O bildirib ki, rus Çar imperiyası qoşunlarının çoxsaylı həmlələrindən sonra Gəncə şəhəri 1804-cü il yanvarın 4-də işğal edilib. Gəncənin müdafiəsində Cavad xan və ortancıl oğlu Hüseynqulu xan şəhid olublar. Qalanın müdafiəsi zamanı minlərlə gəncəli həlak olub. Şah Abbas məscidinə sığınan yüzlərlə insan isə son nəfərinədək qılıncdan keçirilib. Cavad xan çar imperiyası qoşunlarına qarşı mərdliklə mübarizə apararaq Azərbaycanın qəhrəmanlıq tarixinin şanlı səhifələrindən birini yazıb. O, tək Gəncənin yox, bütün Azərbaycanın müstəqillik rəmzidir.

Çıxışlardan sonra Gəncə Dövlət Dram Teatrının aktyorlarının təqdimatında Cavad xanın xatirəsinə həsr olunan səhnəcik nümayiş olunub. Sonda, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və tədbir iştirakçıları Cavad xanın məzarını ziyarət edib, üzərinə gül dəstələri düzüblər.

Zabit XƏLİLOV,
"Respublika".



Milli inkişaf strategiyasına konseptual baxış

Cənubi Qafqazın lider dövləti olan Azərbaycan Respublikası inkişaf etmiş dövlətlər sırasına daxil olmağı strateji hədəflərindən biri kimi müəyyənləşdirmişdir. Azərbaycan hazırda dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq, qlobal iqtisadiyyata inteqrasiyanı daha da sürətləndirmək və yeni idarəçilik texnologiyalarına əsaslanan iqtisadiyyat quruculuğu istiqamətində uğurla irəliləyir.

Hüquq elmləri doktoru, professor İsaxan Vəliyevin "Sabitlik və rifah naminə siyasət" kitabı Azərbaycanın ən müasir tarixinin öyrənilməsi baxımından ensiklopedik xarakterli, sanballı nəşrdir.

Azərbaycanın elminin tanınmış simalarından olan, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, hüquq üzrə elmlər doktoru, Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyevin yeni çapdan çıxmış "Sabitlik və rifah naminə siyasət" kitabı bu mənada müasir iqtisadi, sosial və siyasi islahatlara yeni elmi yanaşma nümunəsi hesab edilə bilər. Elmi redaktoru və ön sözün müəllifi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri, tarix elmləri doktoru, professor Əli Həsənov olan kitab elmi-analitik məzmunu, aktuallığı, elmi yanaşma tərzi ilə diqqəti cəlb edir.

Nəşrdə respublikamızın çoxəsrlik qədim və zəngin dövlətçilik ənənələrinə, dövlətçilik tarixinin müxtəlif dövrlərinə, xalqımızın milli-mənəvi dəyərlərinə, azərbaycançılıq ideologiyasına, müasir inkişaf yoluna çatmasında qət etdiyi zəngin yola, böyük strateq - ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın milli iqtisadi inkişaf modelinin formalaşması prosesinə elmi-nəzəri baxış sərgilənir, habelə müstəqillik illərində davam etdirilən çoxşaxəli islahatlar təhlil edilir.

Kitabda ulu öndər Heydər Əliyevin qətiyyəti və əzmkarlığı sayəsində həyata keçirilən enerji layihələrinin milli təhlükəsizliyimizin möhkəmləndirilməsi və iqtisadi inkişafın sürətlənməsində əhəmiyyəti xüsusi qeyd olunur. Eyni zamanda, ulu öndərin qurub-yaratdığı və əmanət etdiyi müasir, müstəqil Azərbaycanın möhkəm təməl üzərində qüdrətli dövlətə çevrildiyi, iqtisadi, sosial, elm, təhsil, hüquq, humanitar və digər sahələrdə əldə etdiyi nailiyyətlər konkret faktlarla təqdim olunur. Dövlət başçısı tərəfindən yürüdülən qətiyyətli daxili və xarici siyasət nəticəsində Azərbaycanın dünya birliyində etibarlı tərəfdaşa çevrildiyi xüsusi vurğulanır.

"Sabitlik və rifah naminə siyasət" kitabında ulu öndərin layiqli davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası da elmi-praktik təhlil obyekti kimi mühüm yer tutur. Azərbaycanın yeni neft strategiyasına, Avropanın enerji təhlükəsizliyində artan roluna, regionların sosial-iqtisadi inkişafına, dövlət investisiya siyasətinə, sahibkarlığa qayğı tədbirlərinə, aqrar sahədə islahatlara, qida təhlükəsizliyinin təminatına və digər aktual məsələlərə diqqət çəkən müəllif, eyni zamanda, modernləşmə strategiyasının mahiyyətini açmağa çalışır. Respublikamızın iqtisadi həyatındakı yeniliklər, həyata keçirilən liberal islahatlar, ölkəmizin əsas tərəf kimi iştirak etdiyi transmilli layihələrlə yanaşı, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələri, strateji tərəfdaşlıq münasibətlərində olduğumuz dövlətlərin Azərbaycanla bağlı maraqlarını stimullaşdıran amillər və digər məsələlər kitabda konseptual şəkildə şərh edilmişdir.

Müəllif kitabın "Müstəqilliyə aparan yol" adlanan I fəslində xüsusi vurğulayır ki, ulu öndər Heydər Əliyevin Azərbaycanda birinci siyasi hakimiyyəti dövrü xalqımızı milli müstəqilliyə doğru aparan parlaq və zəngin yolun başlanğıcına çevrilmişdir. Ümummilli lider həmin illərdə müasir müstəqil Azərbaycanın etibarlı bünövrəsini qoymuşdur. Azərbaycan xalqının təkidli istəyi ilə 1993-cü ilin iyun ayında siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində müstəqilliyimiz çətin və mürəkkəb şəraitdə qorunub saxlanılmışdır.

1993-cü ildən etibarən ölkədə sabitlik və inkişaf mərhələsi başlanmış, demokratik dövlət quruculuğu və müasir bazar iqtisadiyyatının təmin edilməsi ilə bağlı mühüm qanunlar qəbul edilmiş və genişmiqyaslı struktur islahatları həyata keçirilmişdir. Çox mürəkkəb iqtisadi və siyasi şəraitdə dünyanın nüfuzlu xarici neft-qaz şirkətləri ilə Azərbaycanın gələcək inkişafına yeni səhifə açan "Əsrin müqaviləsi" imzalanmış, müstəqil Azərbaycanın ilk Konstitusiyası hazırlanaraq qəbul edilmişdir. Azərbaycanda hüquqi-demokratik islahatların, sosial-iqtisadi inkişaf proqramlarının qəbul olunması və həyata keçirilməsi siyasi və iqtisadi sabitliyi möhkəmləndirmiş, dayanıqlı inkişafı təmin etmişdir.

Kitabın "Dövlətçilikdə uğurlu varislik" adlanan II fəslində Azərbaycan Xalq Cümhuriyyəti dövründə aparılan siyasi, hüquqi və iqtisadi islahatlara, xarici siyasət strategiyasına, qəbul olunan qanunvericilik aktlarına, habelə parlamentarizm fəaliyyətinə geniş nəzər salınmışdır. Müəllif xüsusi olaraq vurğulayır ki, 1991-ci ildə Xalq Cümhuriyyətinin ideyalarının davam etdirilərək tarixi varislik üzərində yaradılan, müstəqilliyini bərpa edən Azərbaycan Respublikası bununla özünün qədim dövlətçilik ənənələrinə sadiqliyini göstərmişdir. Azərbaycanda dövlətçilik ənənələrinin bərpası və inkişaf etdirilməsi, müstə-

qilliyimizin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin gərgin əməyi sayəsində mümkün olmuşdur.

Müəllif bildirir ki, 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi tarixi hadisə olub, dövlətimizin başçısının Azərbaycan xalqının dövlətçilik ənənələrinin qədimliyinə, zənginliyinə, bütövlükdə tariximizə verdiyi yüksək dəyərin bariz nümunəsidir. Qürur duyulacaq hadisədir ki, Azərbaycan 100 il əvvəl ən zəngin demokratik dəyərləri bəyan edərək, bunu öz praktik fəaliyyətində təsdiqləməyə çalışmışdır.

Nəşrin "Modernləşməyə aparan iqtisadi islahatlar" adlanan III fəslində müəllif Azərbaycanın mükəmməl milli inkişaf modeli sayəsində yüksək iqtisadi və sosial intibaha çatması, modernləşmə xətti yolunda davam etdirdiyi uğurlu islahatlara dair konseptual mövqeyini bildirmişdir. Professor İ.Vəliyev qeyd edir ki, dərin iqtisadi zəka sahibi olan Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın həyata keçirilməsi ölkə iqtisadiyyatının sürətli inkişafını və dünya iqtisadiyyatına inteqrasiyasını təmin etmiş, uğurlu neft diplomatiyasının gerçəkləşməsi sayəsində Azərbaycanı qlobal enerji təhlükəsizliyinin etibarlı təminatçısına çevirmişdir. Ulu öndərin siyasi varisi Prezident İlham Əliyev tərəfindən həyata keçirilən müasir milli inkişaf modeli Azərbaycanın siyasi, iqtisadi, sosial, ictimai, humanitar, elmi-mədəni həyatında məzmunca yeni intibahın əsasını qoymuş, dayanıqlı və etibarlı tərəqqini təmin etmişdir.

Kitabın "Sağlam və dayanıqlı inkişaf naminə" adlı IV fəslində vurğulanır ki, qlobal çağırışlar mühitində ölkəmizin ekoloji təhlükəsizliyinin təmin edilməsi, təbii sərvətlərdən səmərəli istifadə, son illərdə geniş vüsət alan ərzaq və qida təhlükəsizliyinin təmin edilməsi strateji hədəflərdən biri olmaqla yanaşı, milli inkişafın əsas tərkib hissəsinə çevrilmişdir.

Kitabın "Milli maraqların təminatçısı" adlanan V fəslində müəllif yaşadığımız XXI əsrdə dünyanın yeni coğrafi-siyasi mənzərəsinə diqqət çəkərək qeyd edir ki, qloballaşma və inteqrasiya proseslərinin sürətlənməsi yeni qütbləşmələr və bəzi dövlətləri hədələyən qlobal təhdidlərlə səciyyəvidir. Regionda münaqişələrin gücləndiyi bir şəraitdə millimənəvi dəyərlərimizin, milli maraq və mənafelərimizin qorunması son dərəcə önəmlidir. Bu gün möhkəm ictimai-siyasi sabitlik yaradılmış, hüquqi, demokratik dövlət quruculuğu yolu ilə inamla irəliləyən və beynəlxalq standartlara uyğun qanunvericilik bazasına malik olan Azərbaycan Respublikasında milli maraqların qorunması əsas hədəflərdəndir. Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən yürüdülən uğurlu xarici siyasət milli maraqlarımızın etibarlı qorunmasını təmin etmişdir. Azərbaycan dünya dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri quran etibarlı tərəfdaş ölkə kimi tanınır.

İsaxan Vəliyev kitabın "Tolerantlıq məkanı - Azərbaycan" adlanan VI fəslində qeyd edir ki, Azərbaycan bu gün iki fərqli sivilizasiya arasında körpü rolunu oynamaqla, Şərq və Qərb yarımkürələrində öz nüfuzunu gücləndirməkdədir. Bu ideya dövlətin xarici siyasət kursunda da kifayət qədər özünü əks etdirir. Bu gün Azərbaycan BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, GUAM kimi mötəbər təşkilatların tamhüquqlu üzvüdür. Azərbaycan Avropa İttifaqının həyata keçirdiyi "Şərq tərəfdaşlığı" layihəsi çərçivəsində Avropaya inteqrasiya prosesini uğurla davam etdirir. Azərbaycanda tolerantlıq mühiti hər zaman ən yüksək səviyyədə olduğu üçün burada multikulturalizmə, millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli tədbirlər, elmi konfranslar keçirilir. Dünyanın müxtəlif ölkələrini təmsil edən 200-dən çox nümayəndənin iştirak etdiyi "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusunda tədbir 2010-cu ilin aprelində məhz Bakı şəhərində keçirilmişdir. 2011-ci ildən başlayaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəxsi təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir.

Kitabın "Ədalət və mərhəmət ünvanı" adlanan VII fəslində müəllif xalqımızın əsrlərlə formalaşan adət-ənənələrindən, mənəvi dəyər və düşüncəsində xüsusi yer tutan xeyirxahlıq, nəciblik, mərhəmət, mənəvi saflıq dəyərlərindən bəhs etmiş, ali mənəvi-əxlaqi keyfiyyətlərini, özünəməxsusluğunu, milli kimliyini qoruyub saxlamasını qürurverici hal kimi dəyərləndirmişdir. Bu fəsildə cəmiyyətdə ədalət, insanpərvərlik, mənəvi saflıq kimi ülvi dəyərləri özünün amalına çevirən Heydər Əliyev Fondunun zəngin fəaliyyət yolu elmi-bədii üslubda oxucuya təqdim edilmişdir. Kitabda bildirilir ki, Heydər Əliyev Fondu ictimai statusda fəaliyyət göstərməsinə baxmayaraq, dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə öz töhfəsini verir, xalqın milli mədəniyyətinin, milli-mənəvi dəyərlər sisteminin yad təsirlərdən qorunmasında, cəmiyyətdə saflıq, nəciblik, xeyirxahlıq kimi dəyərlərin təbliğində müstəsna rol oynayır. UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Azərbaycan xalqı qarşısında müstəsna xidmətlərin və xeyirxah əməllərin daşıyıcısı kimi tanınmış, insanların səmimi rəğbətini qazanmışdır.

Nəşrin "İntellektual gələcəyə doğru" adlanan VIII fəslində zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycanın bu sərvətlərdən səmərəli istifadəsinə, insan kapitalının inkişaf etdirilməsinə yönəldilməsinə nəzər salınmışdır. Müəllif qeyd edir ki, bu gün təhsilə qoyulan investisiya dayanıqlı insan inkişafına qoyulan investisiyadır. Son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Təhsil sistemində bir çox islahatların aparılması, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və beynəlxalq təhsilə inteqrasiya yolunda mühüm addımların atılması son illərdə sanballı nailiyyətlərin əldə edilməsinə səbəb olmuşdur.

Ümumilikdə, "Sabitlik və rifah naminə siyasət" kitabı milli inkişaf modelinin tədqiqinə yönəlmiş elmi-praktik araşdırmaların məcmusu kimi diqqət çəkir. Kitab Azərbaycanın ən yeni tarixinin obyektiv şəkildə araşdırılaraq öyrənilməsi və qazanılan uğurların qiymətləndirilməsi baxımından son illərin ən mükəmməl çap vəsaitləri sırasında özünəməxsus yerə və sanbala malikdir.

Mehdi ABDULLAYEV,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının prorektoru, hüquq elmləri doktoru, professor.

Daxili və xarici siyasətin vəhdəti uğurların davamlılığını təmin edir

Dövlət başçısı deyib: "İqtisadiyyatın rəqabətliliyinin artırılması üçün biz bundan sonra da fəal işləyəcəyik. Bildiyiniz kimi, Azərbaycanın bu sahədəki reytinqləri ən yüksək səviyyədədir"

(əvvəli 1-ci səhifədə)

Xarici ticarət və iqtisadi əlaqələr potensialının dövri olaraq artması Azərbaycanın dünya iqtisadiyyatında mühüm rol oynamasında, digər transmilli layihələrin də reallaşmasında və bu mövqenin daim möhkəmlənməsində mühüm əsasdır. Bu davamlı inkişafda olan beynəlxalq səviyyəli nəqliyyat sektorunun da mühüm rolu vardır. İqtisadi fəaliyyətdə hər bir sahənin təchizat, çatdırma və s. proseslərin tələbata uyğun olması, beynəlxalq bazarlara çıxışda mühüm əhəmiyyət kəsb edir. Tələbatı ödəmək üçünsə nəqliyyat infrastrukturunun fəaliyyətinin müasir səviyyədə olmasının və lazımi təkliflə cavab verə bilməsinin mühüm rolu vardır. Beləliklə, qeyri-neft sektorunun neft sektoru ilə həmahəng inkişafı, bir-birini tamamlaması ölkənin hərtərəfli inkişafında, iqtisadi və siyasi müstəqilliyində üç mühüm amil əsası hesab olunan enerji, nəqliyyat, ərzaq təhlükəsizliklərinin də təmini və davamlı surətdə möhkəmlənməsini ehtiva edir. Hər kəsə aydındır ki, hər bir ölkədəki nəqliyyat sektoru iqtisadiyyatın, sosial sahənin tələbatlarını ödəməsə, həmin dövlətin iqtisadiyyatı da zəif olar və inkişaf edə bilməz. Ona görə də Azərbaycan rəhbərliyi bu sahəni də prioritet elan etmişdir. Bu istiqamətdə ardıcıl olaraq reallaşdırılan müasir layihələr artıq ölkənin nəqliyyat sektorunun inkişafını beynəlxalq səviyyəyə çatdırıb, onu beynəlxalq infrastruktura müvəffəqiyyətlə bağlayıb, nəticədə daşımalarda artım ilbəil davam edir.

Ölkənin dünyanın müxtəlif region dövlətləri ilə yaratdığı geniş, qarşılıqlı səmərəli əməkdaşlıq əlaqələri çox böyük uğurlara səbəb olub. Beləliklə, Azərbaycanda real iqtisadiyyat dinamik inkişaf edir. Ölkəmizdə liberal iqtisadiyyat bərqərar olduğu üçün sahibkarlıq fəaliyyətinə dövlət bütün lazımi şəraiti yaradır və siyasi, hüquqi, maddi dəstək verir. Bölgələrimizdə davamlı surətdə müasir sənaye və emal müəssisələri, təhsil, səhiyyə ocaqları və ən müasir infrastruktur yaradılır. Ölkənin regional inkişafa dair üçüncü Dövlət Proqramının son mərhələsinin icrası da bu il uğurla yekunlaşmaqdadır. Sosial-iqtisadi sahədə düşünülmüş siyasi fəallıq ölkə iqtisadiyyatının davamlı surətdə artmasına səbəb olub. Beynəlxalq qlobal böhrana baxmayaraq, respublikamızda tətbiq olunan iqtisadi model öz mütərəqqiliyini praktikada təsdiq edib. Azərbaycan iqtisadi intibahı dünya birliyinin də diqqətindədir. Bir çox ölkələr, nüfuzlu beynəlxalq qurumlar, mütəxəssislər, ekspertlər bu analoqu olmayan sıçrayışı təhlil edir və öyrənməyə çalışırlar. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində ölkəmizdəki bu davamlı inkişafa beynəlxalq aləmdə münasibət və qarşıda duran hədəf barədə deyib: "İqtisadiyyatın rəqabətliliyinin artırılması üçün biz bundan sonra da fəal işləyəcəyik. Bildiyiniz kimi, Azərbaycanın bu sahədəki reytinqləri ən yüksək səviyyədədir. Mən bunu dəfələrlə demişəm və bir daha qürur hissi ilə deyə bilərəm ki, Davos Forumunun hesablamalarına əsasən biz iqtisadi rəqabətliliyə görə dünyada 35-ci yerdəyik. Ancaq onu da bilməliyik ki, biz daha da qabağa getməliyik. Ona görə Davos Forumunun hesabatı tam təhlil edilməlidir və təhlil edilir. Bəzi müddəalar var ki, biz orada geridə qalmışıq. Biz onlara mütləq baxmalıyıq və iqtisadiyyatın rəqabətliliyini daha da artırmalıyıq". Göründüyü kimi, son 15 ildə Azərbaycanın daha dinamik inkişafı reallıqdır. Dünya birliyi də bunu görür, qiymətləndirir və aparıcı nüfuzlu beynəlxalq qurumlar Azərbaycanda keçirilən islahatları, quruculuq işlərini təqdir edir. Azərbaycanın əldə etdiyi uğurların zəminini isə rellaşdırılan daxili və xarici siyasətin vəhdəti təşkil edir.

Ataş CƏBRAYILOV.
"Respublika".

UNEC brendi Türkiyədə də dövlət qeydiyyatına alındı

Azərbaycan Dövlət İqtisad Universitetinin brendi olan "UNEC" Türkiyədə "Turk Patent və Marka Kurumu" tərəfindən də tanınıb.

UNEC markası Türkiyədəki universitetlər arasında ən çox yayılan 09,16, 35, 41 və 42 saylı təsnifatlara daxil olan xidmət və məhsulları əhatə edir. Bura təhsil və tədris xidmətləri, nəşr, jurnal, kitab, təqvimlər, eləcə də elm və sənaye ilə bağlı tədqiqat və tədqiqat xidmətləri, elmi inkişaf və araşdırma xidmətləri, keyfiyyət və standartların müəyyən edilməsi məqsədi ilə məhsul və xidmətlərin test olunması fəaliyyəti, reklam materialları, bu istiqamətdə digər xidmət və məhsullar daxildir.

Şərtlərə əsasən, növbəti 10 il ərzində UNEC brendi "Turk Patent və Marka Kurumu" tərəfindən də qorunacaqdır. Bir neçə xarici ölkə tərəfindən UNEC brendinin tanınması işi isə tamamlanmaq üzrədir.

Xatırladaq ki, Azərbaycan Dövlət İqtisad Universitetinə məxsus UNEC brendi 2016-ci il yanvarın 21-də Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən rəsmi dövlət qeydiyyatına alınıb.

RƏSSAMLIQDA MÜKƏMMƏLLİK

Sənətdə heyrətamizlik yaradan başlıca amil sənətkarın fərdi, orijinal yaradıcılıq üslubuna malik olmasıdır. Təbii ki, burda mövzu rəngarəngliyi, ideya axtarışları, özünəməxsus iş prinsipi nəzərə alınır. Rəssamlıqda isə bunlar daha böyük mahiyyət kəsb edir. Lakin uzun zaman bu fikirdə olmuşam ki, təbiət özünün yaratdığı gözəlliklərlə həmişə rəssamları utandırır. Yəni ürək dolusu duyduğumuz gözəllik, gözə-könülə saçılan işıq, hərarət də elə təbiətin özünün yaratdığı möcüzələrdir və bu möcüzənin, əsrarəngizliyin yaradıcısı uca Yaradandır. Fəqət insan oğlunun mənəvi aləminin, düşüncəsinin və barmaqlarının yaratdığı sənət nümunələri də bir başqa gözəllikdir və bu bacarığı, istedadı ona bəxş edən də elə Tanrının özüdür.

Bu fikirləri ifadə edərkən rəssamlıqda incə, həm də böyük sənət nümunələri yaradan Azərbaycan Rəssamlar İttifaqının üzvü tanınmış rəssam İlham Səfərlinin rəngkarlıq, batika və gümüş işlərindən ibarət ekspozisiyası ilə tanışlıq məndə böyük təəssürat oyatdı. Onlardan bəzi nümunələrin məzmunu, səciyyəsi rəssamın yaradıcı dünyası haqqında ilkin, həm də dolğun təsəvvür yaratmış oldu.

İlham Səfərli uşaqlıqdan bədii təsvirə böyük maraq göstərdiyindən sənətdə ilk cığırını pionerlər evində başlamışdı. Sonra da bu həvəsin ötəri olmadığını duyunca, Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbinə üz tutdu. Sənətdə ilk təhsilin aşıladığı mənəvi gözəllik, yaradıcılıq eşqi, fərdi üslub axtarışı onu daha çox öyrənməyə, bu sahədə mükəmməl biliyə, işləmə texnikasına malik olmağa sövq edir. Bu məqsədlə o, Sankt-Peterburq Rəssamlıq Akademiyasında təhsil alır. Bundan sonra Bakıya qayıdır və əmək fəaliyyətinə başlayır. Nəşriyyatda bədii redaktor, İncəsənət İnstitutunda müəllim, baş müəllim və dosent kimi fəaliyyət göstərir. Eyni zamanda müxtəlif mövzularda əsərlər işləyir. Bakıda, Naxçıvanda sərgiləri təşkil olunur. Əsərlərinin mövzusu kosmosa, kainata və elmə həsr olunduğundan özünün orijinallığı ilə diqqəti cəlb edir. 1987-ci ildə Moskvada keçirdiyi sərgidə iştirak edən 80 xarici kosmonavt heyranlıqla bildirmişdi ki, "biz kosmosda görmədiklərimizi İlham Səfərlinin əsərlərində gördük".

Bundan sonra yaradıcılıq diapazonunu genişləndirən rəssam bir-birindən maraqlı mövzularda əsərlər yaradır, doğma Bakımızda və dünyanın bir çox ölkələrində müxtəlif sərgilərdə iştirak edir.

Rəssamın ağ kətanda yağlı boya ilə yaratdığı incə, zərif ştrixlər və rənglərlə işlənmiş portretlər silsiləsindən olan əsərləri orijinal süjetə malik olması ilə tamaşaçıda böyük maraq doğurur. "Bəstəkar Cahangir Cahangirov"un piano arxasında yeni bir əsər üzərində işləməsinin təsviri olan romantik mənzərə, əlvan çiçəklərlə süslənmiş gözəllik insanda bədii təsəvvürə köklənmiş xoş ovqat yaradır. Digər bir rəngkarlıq əsəri olan "Bakı, sabahın xeyir"də məzmun, ideya bir başqa özəllik kəsb edir. Burda rənglərin qovuşuğu, ahəngi ilə şəhərin hüsnü, ona xüsusi gözəllik verən dənizi, tarixi abidə-evləri, ağacları maraqlı bir kompozisiyası ilə yadda qalır. Bu panoramda şair İslam Səfərlinin simasının bədii təsviri sanki Bakının açılan sabahlarına öz xeyir-duasını pıçıldayır...

Rəssamın gümüş işlərindən aldığımız təəssürat da bir başqa stildə işlənmiş əsərlərdir. Belə ki, burda XIX əsrə aid olan Qubanın, Qarabağın "Qollu Çiçi" və "Çələbi" xalılarının incə, zərif cizgilərlə işlənmiş naxışları göz oxşayır. Xırda olduğu qədər də aydın görünən bu naxışlar rəssamın yaradıcılığında nadir incilərdən hesab edilməlidir. "Zulu dünyası" silsiləsindən olan təbrik təsvirləri yeni ideya və fərdi üslubda işləndiyindən müəllifin yaradıcılığına tamaşaçı inamı, bağlılığı yaradır. Qeyd edək ki, rəssamın həmin silsilədən məhəbbət mövzusunda yaratdığı digər əsərləri özünün aşıladığı ideyası ilə tam bənzərsiz olan işlərdir.

İ.Səfərlinin qalereyasında tanış olduğumuz batika işlərindən "Günəşin qamma-kvant və neytrino şüaları", "Uzaq-nağıl qalaktika", "Panspermiya" "Seyredici astronomiya" (1989), "Fəza qrafikası", "Ay işığında" (1990), "Yallı rəqsi", (1992), "Gənc şair" (1996), "Həyat ağacı" (2005) bitkin süjetli, ideyaməzmunu, işləmə texnikası, fikrin uyarlı rənglərlə möhtəşəm təsviri ilə insanı düşündürür. Həm də özünün cəlbediciliyi ilə böyük maraq kəsb edir. Ümumiyyətlə, batik əsərlər işləmə texnologiyasına görə olduqca zövqvericidür. Bu əsərlər həm də ona görə ehtişamlı, əzəmətlidir ki, müəllif mövzularını dərindən dərk edir, onları səciyyələndirməyi bacarır.

İlham Səfərli sənəti ilə bağlı olduqca maraqlı bir həyat yaşayır. Vaxtilə onun Avstriyada baş tutan sərgisi ona böyük uğur qazandırdı. Bütün rəssamlar, sənətsevərlər bu sərgidən zövq almış, azərbaycanlı rəssamın əsərlərini böyük ehtiramla qarşılamışlar. Ümumiyyətlə, o, dünyanın bir sıra ölkələrində əsərləri ilə sərgilərdə iştirak etmişdir. Eyni zamanda, fərdi sərgiləri də təşkil olunmuşdur. 1995-ci ildə isə tale İlham müəllimi Londona apardı. Rəssam burada beş il yaşamalı oldu. O, burda bir firma açaraq sifarişlər qəbul edir, işləyir, həm də qalereyada öz əsərlərinin satışı ilə məşğul olurdu. Əsərləri bəyənildiyindən həvəslə, məmnuniyyətlə alınırdı. Belə bir populyarlıq qazanan həmyerlimizə Londonda rəssamlıq məktəbində dərs demək təklif olunur. Amma neçə il vətəndən ayrı düşmüş rəssama qürbətdə yaşamaq darıxdırıcı görünür. Odur ki, Azərbaycana qayıdıb sənətilə məşğul olur. O, 2000-ci ildə "İlham Səfərli" adı ilə bir ofis açır və Azərbaycan Rəssamlıq Akademiyasını bitirən tələbələrlə çalışır. Burda görülən işlər özünün rəngarəngliyi, gərəkli olması ilə mühüm əhəmiyyət kəsb edir.

İlham Səfərli 18 il xalçaçı Lətif Kərimovla birgə pedaqoji fəaliyyətlə məşğul olub, tələbələrə dərs deyib. Xalçaçı ilə rəssamın birgə fəaliyyəti, sənətə həssas, incə yanaşma baxımından onları bir-birinə mənəvi cəhətdən bağlamışdır. İlham müəllimin bu bağlılıqdan əxz etdiyi ən ümdə qazancı xalçaçı sənətinin incəliklərinə vaqif olması idi. Rəssamın bir çox işlərindən göründüyü kimi o, dekorativ sənətin zərgərlik sahəsində gözəl, gözü, könlü oxşayan əsərlər işləyir. Qızıl suyuna çəkilmiş gümüşdən istifadə edərək qədim Azərbaycan xalçalarını bərpa edir. Əsasən də Ərzuman xalçalarını bir yerə toplayaraq 5 xalça naxışlarından bəhrələnərək, orijinal xüsusiyyətə malik bir xalça hazırlayır. Zənnimizcə, bu kimi istedadın, zəhmətin nəticəsində zövqlü bir sənət nümunəsinin üzə çıxarılması, milli ornamentli dəyərlərin yeni təsvirdə bərpası, işlənilməsi İlham Səfərlinin mədəniyyətimizə ən ümdə xidməti, töhfəsidir.

Onun "Azərbaycan qədim mədəniyyət diyarıdır" adlı silsiləsindən Naxçıvanın qədim abidələri, məscidləri, Şəki xan sarayı, Atəşgah, İçərişəhərlə bağlı sənət nümunələri yaradıcılığının mükəmməl bir qolunu təşkil edir. Bu mükəmməl işlər sərgilərdə nümayiş olunub. İlham müəllimin özünün də etiraf etdiyi kimi, bir sərgisinin də keçirilməsində Teleradio Şirkətində bədii şuranın sədri Etibar Babayevin böyük dəstəyi olub. Bunu ATV-nin "İlham Səfərli" (rəngkarlıq, gümüş işləri, batika) adlı "Qalereya" xüsusi buraxılışından tanış olmaq, böyük zövqlə izləmək bizim üçün olduqca xoşdur.

Azərbaycan Rəssamlar İttifaqının üzvü, incə sənət növünün istedadlı yaradıcılarından olan İlham Səfərli bu gün də özünün bədii zövqünün, zəhmətinin sayəsində ruha qida verən, Azərbaycan mədəniyyətini zənginləşdirən gözəl əsərlər üzərində işini həvəslə davam etdirir.

Şəfəq NASİR,
"Respublika".

Reportaj

Onlar Vətənin ərazi bütövlüyünü qoruyacaqlar

... Səhər tezdən olsa da, müharibə və əmək veteranları, gənclər dəstə-dəstə paytaxtın Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi rayon idarəsinə doğru axışır, dalğa-dalğa ətrafa yayılan milli musiqimiz sabahın əsgərlərinin qürurla dalğalandırdığı üçrəngli bayrağımız hamıda coşqu yaradırdı. Hiss olunurdu ki, ordu sıralarına yola düşən Vətən oğulları ölkəmizin ərazi bütövlüyünü ləyaqətlə qoruyacaqlar.

Əsgəri xidmətə yola düşən bir qrup gənc idarənin həqiqi hərbi xidmətə çağırış şöbəsinin rəisi, polkovnik-leytenant Vüsal Məmmədovun əhatəsində idi. Təcrübəli zabit ordu sıralarına yola düşən gənclərə lazımi tövsiyələrini verir, onlara 2016-cı ilin aprelində ordumuz tərəfindən erməni daşnaklarına endirilən sarsıdıcı zərbələrdən danışır, qürur hissi ilə bildirirdi ki, ölkə başçısının titanik səyi nəticəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilmişdir.

Çal-çağırlı yolasalma mərasimində ilk söz Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi rayon İdarəsinin rəisi polkovnik Eldəniz Əliyevə verildi. O, ilk öncə təntənəli tədbirə qatılan çoxsaylı insanları qarşıladı. Daha sonra qəlbindən süzülüb gələn xoş sözləri onlarla yarı böldü:

—Azərbaycan xalqı öz ordusunu sevir, ona arxalanır, ona güvənir, onun gücünə inanır. Fəxr edirik ki, bu gün bizim güclü dövlətimiz, güclü ordumuz vardır. Bu ordunun gücü isə mənsub olduğu güclü texnikaların: təyyarələrin, gəmilərin, tankların, artilleriya qurğularının, hava hücumundan müdafiə komplekslərinin çoxluğu, müasirliyi, effektivliyi ilə yanaşı, həm də şəxsi heyətin peşəkarlığında, vətənpərvərliyində, mənəvi-psixoloji, siyasi, fiziki hazırlığının yüksəkliyindədir. Ordumuzun gücü həm də xalq ilə onun monolit birliyində, hər bir döyüşçünün ruh yüksəkliyindədir. Bu gün xalqımızın və dövlətimizin yalnız bir şüarı vardır: Hər şey ordu üçün, hər şey qələbə üçün!

Vaxtilə ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyev demişdir ki, hər bir gənc, hər bir ata-ana, hər bir valideyn öz oğlunu böyüdərkən ona ən əvvəl nəsihət verməlidir ki, sənin birinci borcun orduda xidmət etməkdir. Vətəni müdafiə etməyə hazır olmaqdır, döyüş qabiliyyəti əldə etməkdir və döyüşə hazır olmaqdır.

Ordu müstəqil Azərbaycanımızın ən mühüm atributlarından biridir. Bu gün Azərbaycanın güclü ordusu vardır. Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur.

Son illərdə ordu quruculuğu ilə bağlı strateji xətt Azərbaycanda prioritet istiqamətlərdən biri olaraq qalır. Orduda islahatların aparılması və hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi dövlət başçısının daim diqqət mərkəzindədir. Güclü iqtisadi potensial və güclü ordu Azərbaycanın bölgədə güclü ölkə olmasını şərtləndirən əsas amillərdəndir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğu ilə bağlı belə bir fikrini xatırlamaq yerinə düşərdi: **"Biz hərbi gücümüzü artırmalıyıq və artırırıq. Bu gün Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri şərəflə yerinə yetirməyə hazırdır. Bir daha demək istəyirəm ki, döyüş qabiliyyəti, peşəkarlıq, vətənpərvərlik ruhu, maddi-texniki bazanın möhkəmlənməsi, orduya dövlət tərəfindən göstərilən diqqət və hörmət-bütün bu amillər bizə imkan verəcək ki, doğma torpaqlarımızı işğalçılardan azad edək".**

Gənclərin ordu sıralarına yolasalınma mərasimində Rövşən Vəliyev valideynlər adından çıxış edərək dedi:

—Bu gün Vətənə sizin kimi cəsarətli, daha mətin, daha mübariz oğullar gərəkdir. Elə oğullar ki, Vətənimizin ərazi bütövlüyünü, suverenliyini qoruya bilsin. Biz əminik ki, siz ata-babalarımızın şanlı döyüş ənənələrinə saqdiqlik nümunəsi nümayiş etdirəcək, Bayrağımıza, Himnimizə,

Gerbimizə, Andımıza sədaqətli olacaqsınız.

Ölkəmiz qüdrətli orduya malikdir, əmin ola bilərsiniz ki, çox tezliklə Kəlbəcər, Laçın, Qubadlı, Şuşa və işğal altında olan digər ərazilərimiz erməni quldurlarından azad olunacaqdır.

Tədbirdə əsgəri xidmətə yola düşən gənclərdən Vüsal Alıyevin çıxışı hamıda xoş ovqat yaratdı. O, vurğuladı ki, ordu sıralarına yola düşməkdən qürur duyuruq. Xidmət dövründə biz həmişə ayıq-sayıq olacaq, hər qarış Vətən torpağını göz bəbəyi kimi qoruyacaq, hərbi texnikanın sirlərini mükəmməl öyrənəcək, hər an torpaqlarımızı işğaldan azad etməyə hazır olacağıq.

Soyuq bir qış günündə gənclərdən Anar Zamanov, Vüsal Alıyev, Hüseyn Vəliyev və başqaları tədbirə qatılan insanların xeyir-duası ilə əsgəri xidmətə yola düşürlər...

Qədir ASLAN,
"Respublika".

Xəlfəli kənd musiqi məktəbi uğurla fəaliyyət göstərir

Təsadüfi deyildir ki, korifeylərimiz Şuşanı "təbii konservatoriya adlandırırlar". Doğrudan da Şuşa daim musiqi beşiyi olmuşdur. Buradan musiqi sahəsində dahilər çıxması da təsadüfi deyildir. Belə ki, Üzeyir bəy Hacıbəyov, Bülbül, Mirmövsüm Nəvvab, Cabbar Qaryağdı oğlu və başqaları buna misal ola bilər. Elə bu səbəbdəndir ki, "Şuşada uşaqlar da muğamat üstündə ağlayır" deyirlər. Şuşanın kəndlərində də musiqi və incəsənət məktəblərinin açılması heç də təsdadüfi deyildi. Xəlfəli kənd musiqi məktəbinin də fəaliyyətə başlaması zərurətdən yaranmışdır.

Uşaqların və yeniyetmələrin marağını, burada istedadların çox olmasını nəzərə alaraq 1991-ci ildə Xəlfəli kəndində uşaq musiqi məktəbi açılmışdır. 5-6 nəfər müəllim və 50 nəfər şagirdlə fəaliyyətə başlayan məktəb qısa bir zaman kəsiyində rayonda nümunəvi məktəbə çevrilmişdir.

1992-ci ildə Şuşanın işğalı ilə əlaqədar məktəb Bakı şəhərində fəaliyyətini davam etdirmək məcburiyyətində qalmışdır. Məktəb əvvəlcə Bakıdakı F.Əmirov adına 6 nömrəli uşaq musiqi məktəbində, sonra isə Biləcəri qəsəbəsindəki orta məktəb binasında fəaliyyətini davam etdirmişdir.

Məktəbin direktoru, ali ixtisas təhsilli təcrübəli, musiqiçi Salman Ağalarovla söhbət edərkən o, bildirdi ki, hazırda məktəbdə 7 şöbə fəaliyyət göstərir. Burada uşaqlara tar, kamança, fortepiano, nağara, saz, qarmon və xanəndəlik sənətinin sirləri öyrədilir. Direktor onu da qeyd etdi ki, məktəbdə 161 nəfər uşağa 33 nəfər müəllim musiqinin sirlərini öyrədir.

Müəllimlərdən Gülnarə Abbasquliyeva, Günay Fərzəliyeva, Zahir Əliyev, Aytən Haşımova və başqaları musiqinin sirlərini uşaqlara öyrətmək üçün əllərindən gələni edirlər. Bütün bunların nəticəsidir ki, respublika əhəmiyyətli tədbirlərdə də məktəb kollektivi uğurla iştirak edir. 2017-ci ildə Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunmuş XI xor müsabiqəsində məktəbin xor kollektivi xüsusi diploma layiq görülmüşdür. Saz müəllimi, təcrübəli aşıq Sevil Xıdırova Türkiyə Respublikasında keçirilən saz müsabiqəsində Atatürk adına qızıl medala layiq görülmüşdür. Ümumiyyətlə istər müəllim, istərsə də şagird kollektivi nəinki rayon, eyni zamanda respublika tədbirlərində də uğurla çıxış edirlər.

Heç də təsadüfi deyildir ki, məktəbin məzunları musiqi təmayüllü ali və orta ixtisas məktəblərə qəbul olurlar. Bütün bunlar məktəbin uğurlarından xəbər verir.

Zabit CAVADOV,
"Respublika".

MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI UĞURLU İNKİŞAF YOLUNDA

Respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını, meliorasiya və su təsərrüfatı sahəsini inkişaf etdirmədən müvəffəq olmağın mümkünsüzlüyünü göstərən ulu öndər Heydər Əliyevin məhz bu sahəyə xüsusi diqqət yetirməsi və həyata keçirilən böyük tədbirlər nəticəsində kənd təsərrüfatı sahəsində yüksək nailiyyətlər əldə olunmuşdur. Belə ki, məhz fenomen şəxsiyyətin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə bu sahədə quruculuq işləri geniş vüsət almış, nəhəng layihələr hazırlanmış, iri su anbarları, hidroqovşaqlar tikilib istifadəyə verilmişdir.

Xalqın təkidli dəvəti ilə müdrik rəhbər, dünya miqyaslı siyasətçi ulu öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı ilə meliorasiya və su təsərrüfatı öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, bu sahəyə diqqət və dövlət qayğısı artırılmış, mövcud meliorasiya potensialının dağılmasının qarşısı alınmış, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Aqrar islahatının bir hissəsi olaraq meliorasiya və su təsərrüfatı sahəsində islahatların torpaq islahatı ilə birlikdə, kompleks şəkildə aparılması nəzərdə tutulmuş, islahatların normativ-hüquqi bazası yaradılmış, normativ-hüquqi sənəd hazırlanmışdır. Elə həmin dövrdən başlayaraq Meliorasiya və Su Təsərrüfatı rəhbərliyi və fədakar melioratorlar işlərini lazımi səviyyədə qurmuş və bu sahədə inkişafa nail olmuşlar.

Ümummilli lider tərəfindən 1996-cı ildə imzalanmış "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanunu və onun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1996-cı il tarixli Fərmanı bu işlərin yüksəldilməsinə stimul vermişdir.

Ulu öndərin göstərişlərini əsas tutaraq respublikaya qoyulan xarici investisiyalar, ilk növbədə, meliorasiya və su təsərrüfatı sahəsinə yönəldilmişdir. Hazırda Azərbaycanda bu sahədə mövcud problemləri həll etmək və qarşıda duran strateji məqsədə çatmaq üçün elmi əsaslara söykənən təhlil aparılaraq mühüm tədbirlər həyata keçirilir. Son illərdə ən böyük layihələrdən olan, strateji əhəmiyyəti və kapital qoyuluşu ilə nəhəng su anbarlarının tikintisi bunun bariz nümunəsidir. Bununla da minlərlə hektar torpaq sahəsinin suvarılmasına şərait yaranmışdır. Digər tərəfdən, bu, kənd təsərrüfatının inkişafına, yeni iş yerlərinin yaradılmasına imkan verib.

Bütün bunlar sübut edir ki, ölkədə kənd təsərrüfatı istehsalının artırılmasında, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında böyük rolu olan mövcud meliorasiya və su təsərrüfatı fondlarının qorunub saxlanılması və onların istismarının yaxşılaşdırılması, bu sahənin müasir tələblər səviyyəsində daha da inkişaf etdirilməsi ölkə Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Məhz dövlətimizin başçısının diqqəti və qayğısı sayəsində bu cür mühüm strateji əhəmiyyət kəsb edən layihələr reallığa çevrilmişdir. Son 15 ildə Azərbaycanda genişmiqyaslı suvarma kanalları, kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidən qurulması və bərpası, torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yüksək səviyyədə yerinə yetirilmiş, yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmiş, subartezian quyuları qazılaraq istifadəyə verilmişdir. Ümumi sututumu 456 milyon kubmetr olan ən böyük layihələrdən olan, strateji əhəmiyyəti və kapital qoyuluşu ilə seçilən 4 su anbarı (Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə) tikilib istifadəyə verilmişdir ki, bununla da minlərlə hektar torpaq sahəsinin suvarılmasına şərait yaradılmışdır.

Xüsusilə qeyd etmək lazımdır ki, Qərb bölgəsində yerləşən Şəmkirçay su anbarı və Şəmkir-Samux-Goranboy magistral suvarma kanalı kompleks layihəsi də bu baxımdan olduqca mühüm əhəmiyyətə malikdir. "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına Şəmkirçay su anbarı və Şəmkir-Samux-Goranboy magistral suvarma kanalı kompleks layihəsi barədə məlumat vermiş və bildirmişdir ki, bu kanalın tikintisi ilə su mənbəyi işğal zonasında qalmış Goranboy rayonunun 8293 hektarı yeni suvarılacaq torpaq olmaqla, ümumilikdə 26584 hektar torpaq sahəsi suvarma suyu ilə təmin ediləcək. Qeyd edək ki, Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yoluna qədər 8,55 kilometrlik birinci mərhələsinin tikintisi 2017-ci ildə başa çatdırılıb, ölkə Prezidenti cənab İlham Əliyev Samux və Goranboy rayonlarının 941 hektarı yeni suvarılacaq torpaqlar olmaqla, 8938 hektar torpaq sahəsinə suvarma suyunun verilməsi mərasimində iştirak edib. Dövlətimizin başçısının həmin mərasimdə verdiyi tapşırıqların icrasına uyğun olaraq, 2017-ci ildə Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu və ikinci dərəcəli avtomobil yolu ilə kəsişməsində keçid qurğularının, eləcə də kanalın tikintisi işləri davam etdirilib. Bu hissədə nəqliyyatın hərəkətinə maneçilik yaradılmaması üçün 450 metr uzunluğunda düzbucaqlı dəmir-beton suötürən qurğu, eləcə də uzunluğu 4,95 kilometr olan açıq dəmir-beton üzlüklü kanal inşa olunub. Bununla da, Goranboy rayonunda daha 8 min hektar sahəyə suvarma suyunun verilməsi təmin edilib.

Qeyd edək ki, ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 2009-cu ildə Şəmkir su anbarının tikintisinin təməlqoyma və 2014-cü ildə açılış mərasimləri keçirilmişdir. Su Elektrik Stansiyası ilə birlikdə Şəmkirçay su anbarının, ondan su götürən 60,5 kilometr uzunluğunda magistral kanalların istifadəyə verilməsi ilə Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarında 54 min hektar əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına, 17 min hektar yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə, ildə 56 milyon kilovat-saat elektrik enerjisinin istehsalına, Gəncə və Şəmkir şəhərlərinin, Samux rayonunun Nəbiağalı qəsəbəsinin əhalisinə ildə 50 milyon kubmetrə yaxın ekoloji təmiz içməli su verilməsinə imkan yaranmışdır. Hazırda su anbarından Şəmkir şəhərinə içməli su verilir, Gəncə şəhərinə və Samux rayonunun Nəbiağalı qəsəbəsinə isə içməli su xətti hazır olduqdan sonra suyun verilməsi təmin ediləcək. Şəmkirçay su anbarı istifadəyə verildiyi vaxtdan 2018-ci il yanvarın 1-dək oraya yığılan 740 milyon kubmetr su hesabına Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarının 43 min hektara yaxın əkin sahələrinin su təminatı yaxşılaşdırılıb, Şəmkir, Goranboy və Göygöl rayonlarının 4940 hektar, eləcə də "Şəmkir Aqropark"ın 543 hektar yeni suvarılacaq sahələri suvarma suyu ilə təmin edilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyev bu möhtəşəm layihənin açılışı zamanı görülən işləri bəyənmiş, xeyir-duasını vermiş və dəyər verərək bildirmişdir: "Uğurlar olsun. Bu gün biz belə gözəl layihəyə start veririk. Yaxşı iş görmüsünüz. Gözəl kanal çəkmisiniz. Kənd təsərrüfatının inkişafı üçün bunun çox böyük əhəmiyyəti var". Göründüyü kimi, meliorasiya və irriqasiya sahəsində aparılan əsaslı islahatlar çərçivəsində reallaşdırılan bu kimi layihələrin icrası, ölkə Prezidenti cənab İlham Əliyevin də açılış mərasimlərində vurğuladığı kimi, bir tərəfdən Azərbaycanın güclü iqtisadi imkanlarını ortaya qoydu, digər tərəfdən isə ölkə vətəndaşlarının daha da yaxşı yaşaması, əhalinin rifah halının gündəngünə yüksəldilməsi istiqamətində dövlətin həyata keçirdiyi ardıcıl siyasətin bir göstəricisidir. Şübhəsiz ki, bu layihələrin gerçəkləşməsi ölkəmizdə qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişafına sanballı töhfələr verəcək, aqroparkların, iri fermer təsərrüfatlarının və müasir heyvandarlıq komplekslərinin suvarma suyu ilə təminatında böyük rol oynayacaqdır.

Dövlət başçısı cənab İlham Əliyevin ölkəmizdə mövcud meliorasiya və su təsərrüfatı fondlarının qorunub saxlanılması, onların istismarının yaxşılaşdırılması və daha da inkişaf etdirilməsinə göstərdiyi sonsuz diqqət və qayğı fədakar melioratorların məsuliyyətini daha da artırır, onları daha yaxşı işləməyə sövq edir.

İlqar MƏHƏRRƏMOV,
Göygöl Suvarma Sistemlər İdarəsinin rəisi.

TÜRKİYƏNİN ABŞ-ın DÖVLƏT KATİBİNƏ CAVABI GECİKMƏDİ

Türkiyə kürdləri və kürd özünümüdafiə dəstələrini bərabər tutan ABŞ-ın Dövlət katibi Mayk Pompeonun bəyanatını təkzib edib. "Sputnik" informasiya agentliyinin məlumatına görə, bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin mətbuat katibi Hami Aksoy bəyan edib.

"Biz Pompeonun ölkəmiz barədə portallardan birinə verdiyi müsahibəsində işlətdiyi ifadələri təkzib edirik. Terrorçuların kürdlərə bərabər tutulması, əgər bu təsadüf deyilsə, onda bu informasiya çatışmazlığıdır və bu da narahatlıq doğurur. YPG terror təşkilatının İŞİD-lə mübarizədə tərəfdaş kimi göstərilməsini qəti şkildə pisləyirik", - deyə Hami Aksoy vurğulayıb.

Məlumata görə, ABŞ-ın dövlət katibi Mayk Pompeo "Nesmax" telekanalına müsahibəsində Suriyaya dair prezident Donald Trampın təlimatlarından danışıb. Bu zaman Pompeo Türkiyə ilə bağlı qalmaqallı ifadə işlədib.

ABŞ-ın dövlət katibi deyib: "Bu təlimatları bütün cəbhələrdə yerinə yetirəcəyik. Sadəcə qoşunları geri çəkməklə qalmayacağıq, prezidentin ortaya qoyduğu digər bütün təlimatları həyata keçirəcəyik - türklərin kürdləri qətlə yetirməsinin qarşısını alacaq, Suriyada dini azlıqların hüquqlarının qorunmasını təmin edəcəyik".

Mayk Pompeonun sözlərinə görə, bütün bunlar ABŞ-ın daşıdığı missiyanın bir parçasıdır. "Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla üzərində işləməli olduğumuz çox məqamlar var", - deyə dövlət katibi əlavə edib.

Aparıcının "Türkiyə prezidenti güvənilməcək bir ortaqdırmı" sualını Pompeo belə cavablandırıb: "Türklərlə üzərində işləməli olduğumuz bir sıra nüanslar var. Onlar NATO-nun müttəfiqidir. Amerikalıları maraqlandıran və amerikalıların etibarını möhkəmləndirən bir sıra məsələlərdə türklərin xeyli dəstək olduqları məqamlar var".

Qeyd edək ki, 2018-ci il dekabrın 24-də ABŞ prezidenti Donald Tramp qoşunların Suriyadan çıxarılması haqqında sərəncam imzalayıb. Ağ Ev tərəfindən qoşunların çıxarılması barədə bəyanat verildikdən sonra ABŞ-ın müdafiə naziri Ceyms Mettis və ABŞ-ın İŞİD-lə mübarizə üzrə xüsusi nümayəndəsi Brett Makqerq istefa veriblər.

İRAN ATLANTİK OKEANA HƏRBİ GƏMİ GÖNDƏRMƏK NİYYƏTİNDƏDİR

İran Dəniz Qüvvələrinin İkinci Komandanlığını cari ilin mart ayından Atlantik okeanının qərbinə göndərəcək. "Report" informasiya agentliyinin İran mətbuatına istinadən verdiyi xəbərə görə, bunu İslam Respublikası Silahlı Qüvvələri Dəniz Qoşunlarının komandanı əvəzi, kontr-admiral Turac Həsəni-Müqəddəm bildirib.

Kontr-admiralın sözlərinə görə, ordunun bir eskadrilyasının Atlantik okeanına göndərilməsi İranın Ali Baş Komandanlığının göstərişinin icrası, ucqar sularda milli maraqların qorunması, "İranofobiya" planının zərərsizləşdirilməsi və dənizçilik xətlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyır.

Komandan əvəzi bildirib ki, bu hərbi gəmi tapşırıq müddətində Yer kürəsini dolanacaq: "Səhənd" helikopterdaşıyan esminesi Atlantik okeanında tapşırıq icra olunduğu müddətdə həmin gəmini müşayiət edəcək".

Eyni zamanda, Turac Həsəni-Müqəddəm bildirib ki, ordunun 59-cu eskadrilyası da hazırda Ədən körfəzində və Hind okeanının on dərəcəlik meridianında tapşırıq yerinə yetirir.

Bununla yanaşı, verilən xəbərə əsasən, İranın bu addımına rəsmi Vaşinqton münasibət bildirməyib.

GÜRCÜSTANDA "H1N1" VİRUSUNDAN ÖLƏNLƏRİN SAYI 8 NƏFƏRƏ ÇATIB

Gürcüstanda "H1N1" virusuna yoluxmadan ölənlərin sayı 8 nəfərə çatıb. "Report" informasiya agentliyinin verdiyi xəbərə görə, "H1N1" virusu diaqnozu ilə Tbilisinin İnqorovka xəstəxanasında müalicə olunan gənc dünyasını dəyişib. Məlumata əsasən, pasiyentin "donuz qripi"ndən ölməsi laborator şəraitdə təsdiq olunub. Xəstəxanadan bildirilib ki, təxminən, 30 yaşda olan gənc iki gün tibbi müəssisədə müalicə alıb, lakin onun vəziyyəti çox ağır olduğundan həyatını xilas etmək mümkün olmayıb.

Eyni zamanda, qeyd olunur ki, "H1N1" virusundan daha bir nəfər də həyatını itirib.

Gürcüstanın səhiyyə naziri David Sergeyenko bildirib ki, ölkədə qripə yoluxma halları çoxalsa da, təlaş üçün heç bir əsas yoxdur. O deyib: "Bizdə epidemiya mövcud deyil, sadəcə, yoluxma halları artıb".

Qeyd edək ki, Gürcüstanda bu günə qədər "H1N1" virusundan ölənlərin sayı 6 nəfər təşkil edirdi. Ölüm hallarının 4-ü Acarıstan Muxtar Respublikasında qeydə alınıb. Hazırda muxtar respublikda uşaqlar da daxil olmaqla, təxminən, 130 nəfər qrip virusundan xəstəxanada müalicə olunur.

BMT KAŞIKÇININ QƏTLİ İLƏ BAĞLI İSTİNTAQI QANEEDİCİ SAYMIR

Səudiyyə Ərəbistanında jurnalist Camal Kaşıkçının öldürülməsi ilə bağlı başlanan cinayət işinin araşdırılması yetərli səviyyədə aparılmır. "Report" informasiya agentliyinin Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, bunu BMT İnsan Hüquqları Ali Komissarlığının Camal Kaşıkçının qətli ilə bağlı Səudiyyə Ərəbistanının apardığı istintaqın gedişinə dair yaydığı açıqlamada bildirilib.

BMT-nin qurumu araşdırmanın qaneedici olmadığını vurğulayaraq, cinayət işini beynəlxalq istintaq tərəfindən aparmağa çağırıb.

Qeyd edək ki, tanınmış müxalifətçi ərəb jurnalist, "Washington Post" qəzetinin müxbiri Camal Kaşıkçı 2018-ci il oktyabrın 2-də Səudiyyə Ərəbistanının İstanbuldakı Baş Konsulluğunda qətlə yetirilib.

Xatırladaq ki, Səudiyyə Ərəbistanının Baş Prokurorluğu jurnalist Camal Kaşıkçının qətlə yetirilməsilə bağlı Ər-Riyad Cinayət Məhkəməsində ilk dinləmələrin keçiriləcəyini bildirib.

ÇİN ƏHALİSİ ÖTƏN İLDƏ 1,27 MİLYON NƏFƏR AZALIB

Çin əhalisi 2018-ci ildə 1,27 milyon nəfər azalıb. "Report" informasiya agentliyinin xarici mətbuata istinadən verdiyi xəbərə görə, Çinin Dövlət Səhiyyə və Planlı Doğuşlar Komitəsinin məlumatlarını və başqa yerli mənbələri tədqiq edən Pekin Universitetindən iqtisadçı Su Çianq və Viskonsin Medison Universitetindən doğum üzrə ekspert Yi Fuxian bu qənaətə gəliblər.

Məlumata əsasən, sözügedən ölkədə 2017-ci ilə nisbətən 2018-ci ildə 2,5 milyon az, yəni cəmi 10,31 milyon uşaq doğulub. Bununla yanaşı, ölkədə ölüm sayı 11,58 milyon nəfər təşkil edib. Beləliklə, Çin əhalisində son 70 ildə ilk dəfə azalma müşahidə olunub.

Ötən ili Çin əhalisi üçün "tarixi dönüş nöqtəsi" kimi səciyyələndirən ekspert Yi Fuxian bunu doğum qabiliyyətli qadınların azalması və təhsil, səhiyyə, mənzil xərclərinin artması səbəbindən bir çoxlarının tək övlad sahibi olmağa, yaxud heç övlad dünyaya gətirməməyə üstünlük verməsi ilə izah edib.

İSVEÇRƏ BANKININ SABİQ ƏMƏKDAŞLARININ 2 MİLYARD DOLLARLIQ DƏLƏDUZLUĞU

İsveçrənin ikinci böyük maliyyə sindikatı "Credit Suisse Group AG"in sabiq əməkdaşları Endrü Pirs, Surkana Sinqxe, Detelina Subeve Londonda ABŞ-ın sorğusu əsasında həbs ediliblər.

"Report" informasiya agentliyinin "Röyters"ə istinadən verdiyi məlumata görə, ABŞ-ın Baş Prokurorluğunun nümayəndəsinin sözlərinə əsasən, adıçəkilən şəxslər Mozambik Respublikasının dövlət şirkətlərinin də iştirak etdiyi 2 milyard ABŞ dolları məbləğində dələduzluq əməliyyatında ittiham olunurlar.

Eyni zamanda, bildirilir ki, "rüşvətxorluqla mübarizə qanununu pozmaq üçün sövdələşmə", çirkli pulların yuyulması, qiymətli kağızlarla dələduzluq ilə bağlı maddələrlə ittiham olunan hər üç nəfər məhkəmənin qərarı ilə girov müqabilində sərbəst buraxılıblar.

"Credit Suisse Group AG"dən verilən açıqlamada deyilir: "İttihamnaməyə görə, şəxsi mənfəət güdərək əməllərini gizlətməyə çalışan keçmiş əməkdaşlar bankın daxili nəzarət sistemini sıradan çıxarmağa cəhd göstəriblər".

"Röyters" agentliyinin qeyd etdiyinə görə, Bruklin Federal Prokurorluğunda araşdırılan eyni cinayət işi çərçivəsində dekabrın 29-da Cənubi Afrikada Mozambikin keçmiş maliyyə naziri Manuel Çanq da həbs edilmişdi. Həmçinin bildirilir ki, ABŞ həbs edilənlərlə bağlı ekstradisiya tələbini irəli sürüb. ■

Əmək veteranı yubiley medalına layiq görüldü

Təqdirəlayiq haldır ki, vaxtilə səmərəli fəaliyyətləri ilə fərqlənən əmək veteranları təqaüdə çıxmalarına baxmayaraq yenə də gündən-günə çiçəklənən respublikamızın sürətli inkişaf proseslərində fəal iştirak edir, əllərindən gələni əsirgəmirlər. Gənclərimizə nümunə olan belə mübariz veteranlardan biri də Məşdi Məmmədrza oğlu Zeynalovdur. Ölkə həyatında xidmətlərinə görə Məşdi müəllim general Əliağa Şıxlinski yubiley medalı ilə təltif olunub.

Məşdi Zeynalov 1934-cü ildə Azərbaycanın dilbər guşələrinin birində, Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonun Şahtaxtı kəndində anadan olub. 1952-ci ildə kənd orta məktəbini, 1954-cü ildə Cəlil Məmmədquluzadə adına ikillik Naxçıvan Dövlət Müəllimlər İnstitutunu bitirmiş, təyinatla Lerik rayonunun Vistan kənd 7 illik məktəbində fizika-riyaziyyat müəllimi işləmişdir. 1954-57-ci illərdə hərbi xidmətdə olub, ən çətin - klassik güləş növü ilə məşğul olan Məşdi Zeynalov SSRİ-nin bir sıra şəhərlərində keçirilən yarışlarda iştirak etmiş, mükafata layiq yerlər tutmuşdur. Bu maraq onu Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna aparır (1958-1962-ci illər). Məşdi müəllim 1963-cü ildən əmək fəaliyyətini Sumqayıt şəhəri ilə bağlayır. Şəhərin bir sıra qabaqcıl məktəblərində baş bədən tərbiyəsi müəllimi işləmiş, yaxşı işinə görə nüfuz qazanmışdır. 2011-ci ildə yaşa görə təqaüdə çıxan Məşdi Zeynalov 55 ildən çox pedaqoji staja malikdir, bu fəaliyyəti dövründə ictimai işlərdə aktiv iştirak etmişdir. Pedaqoji fəaliyyətində qazandığı uğurlarına görə "Qabaqcıl maarif xadimi" adına layiq görülmüşdür. 1977-1990-cı illərdə şəhər üzrə şagird istehsalat briqadası qərargahının rəisi kimi çalışıb.

O, həm də fəal ictimaiyyətçi kimi yaxşı tanınır. Çalışdığı məktəblərdə partiya təşkilat katibi olub. Əmək fəaliyyətini idmana, bədən tərbiyəsinə həsr etmiş M.Zeynalov bu gün də ictimai işlərdə fəal mövqe nümayiş etdirir. Yeni Azərbaycan Partiyasının üzvüdür. 2003-cü ildən 2011-ci ilədək partiyanın Sumqayıt şəhər Təşkilatının 27 saylı məktəb üzrə ərazi təşkilatının sədri vəzifəsində çalışmışdır. 2007-ci ildən hazıra kimi Sumqayıt Təhsil Şöbəsi Veteranlar Təşkilatının sədri vəzifəsində çalışır. Eyni zamanda şəhər Veteranlar Təşkilatının məsul katibidir. Məşdi Zeynalov idman icmalçısı kimi dövri mətbuatda maraqlı yazıları ilə müntəzəm çıxış edir. Gənc nəslin təlim-tərbiyəsində fəal iştirak edən Məşdi müəllim Azərbaycan Veteranı qəzetinin təbliğində və yayılmasında da fəal təşkilatçılıq qabiliyyətini uğurla həyata keçirir.

M.MUSTAFA,
"Respublika".

TƏKRAR

Şabran Rayon İcra Hakimiyyəti başçısının Şabran şəhər İƏD üzrə Nümayəndəliyi

AÇIQ TENDER ELAN EDİR

Tender 3 Lot üzrə aparılır:
Lot-1. Abadlıq işləri
Lot-2. Yolların əsaslı təmiri
Lot-3. Mənzil fondunun əsaslı təmiri

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük verilməkdir: asağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Ünvan: Şabran şəhəri, M.Ə.Rəsulzadə küçəsi 39, telefon: (02335) 3-23-41

Əlaqələndirici şəxs: Mahmud Hacıyev, 055 416-91-41

Maraqlananlar əsas şərtlər toplusunu aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra yuxarıda göstərilmiş ünvandan ala bilərlər.

Lot-1. 300 (üç yüz) manat
Lot-2. 300 (üç yüz) manat
Lot-3. 200 (iki yüz) manat

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
Bank:
Adı: ABB Şabran filialı
Kodu: 805465
VÖEN: 9900001881
Müxbir hesab:
AZ03NABZ01350100000000002944
S.W.İ.F.T. İBAZAZ 2X
Təşkilat:
Adı: Şabran rayon YXO
Hesab: AZ95İBAZ36010019449580043253
VÖEN: 500051201

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-işlərini yerinə yetirmək üçün potensial imkanı və analoji işlərin yerinə yetirilməsinə dair 5 illik iş təcrübəsi haqqında məlumat;
-vergi və digər borcların olmaması barədə arayış;
-tender təklifinin təminatı (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);
-tender təklifi dəyərinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən 60 bank günü qüvvədə olunmalıdır.

Qeyd olunmuş sənədlər 1 fevral 2019-cu il saat 17:00 tarixinədək, bank zəmanəti və tender təklifi isə 11 fevral 2019-cu il tarixdə saat 17:00-dək təqdim olunmalıdır. Təklif zərfləri 12 fevral 2019-cu il tarixdə saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Şabran Rayon İcra Hakimiyyəti başçısının Şabran şəhər İƏD üzrə Nümayəndəliyinin Tender Komissiyası.

TƏKRAR

"Azəralüminium" MMC

AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender bir (lot) lot üzrə keçirilir:
LOT-1. 96 000 TON GİL-TORPAĞIN SATINALINMASI

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı sürətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Gəncə şəhəri, Yevlax şosesi 53 ünvanından ala bilərlər.

Əlaqə telefonu: (+99450) 250 14 29
Əlaqələndirici şəxs: Baxşəliyev Xəzri
Email: tenders@azeraluminium.com
Lot üzrə 200 (iki yüz) manat
Rekvizitlər:
VÖEN: 1305481501
Bank: "Azərbaycan Beynəlxalq Bankı "Gəncə" filialı
Kod: 509352
VÖEN: 9900001881
M/h: AZ03NABZ01350100000000002944
S.W.İ.F.T. BİK:İBAZAZ2X
İBAN: AZ36İBAZ40040019446110810255 AZN
İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü müddətində qüvvədə olmalıdır);
- malların təhvil verilmə qrafiki;
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanların tərəfindən təsdiq olunmuş maliyyə hesabatının sürəti;
- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- İddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat. Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır);

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və malların təchiz olunma qrafiki istisna olmaqla) 6 fevral 2019-cu il saat 17:00-a qədər, malların təchiz olunma qrafiki, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 14 fevral 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 15 fevral 2019-cu il saat 12:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

"Azeraluminium" LLC

CALL FOR TENDER

The tender is held on a lot of lots:
LOT-1. PURCHASE OF ALUMINA 96 000 TON

Bidders are encouraged to submit their tender proposals in sealed, signed, double envelopes in a written form. Tender participants must have the necessary financial and technical capacities to fulfill the contract.

Wishing to attend in the tender can get an Instructions for Tenderers prepared in English language at Ganja, Yevlakh Highway 53 after transferring participation fee to the following bank details.

Contact number: +994502501429
Contact person: Bakhshaliyev Khazri
Email: tenders@azeraluminium.com
Price per lot: 118 (one hundred eighteen) USD
Bank Details:
Tax ID: 1305481501
Bank: Azerbaijan International Bank Ganja Branch
Account of the Beneficiary:
AZ26IBAZ40140018406110810255
Code: 509352
Correspondent acoount: Citibank N.A. New York
SWIFT BIC: CITIUS33
Account Number: 36083186
Participation fee is non-refundable.

Bidders must submit the following documents to participate in the tender:
- Written application to participate in the tender;
- Bank document on payment of participation fee;
- Tender proposal (must be valid within 30 banking days from the date of opening of the envelopes);
- Goods delivery schedule;
- Bank guarantee in the amount of 1% of the value of the tender proposal (must be valid within 60 banking days after the date of opening of the envelope);
- financial report for the last year approved by the tax authorities on the activities of the applicant;
- Bank statement on the financial condition of the applicant for the past year;
- full name, legal status, Charter, country of registration and company and bank details;
- Information on the applicant's experience and capabilities over the past year. Documents should be prepared in 2 versions (original and copy).

The tender procedure will be carried out in accordance with the Azerbaijan Republic State Procurement Law.

Bidders must submit the aforementioned documents (with the exeption of tender offer, bank guarantee and goods delivery schedule) before 5:00 pm February 6, 2019, and the goods delivery schedule, tender offer and bank guarantee in a sealed double envelope must be submitted before 5:00 pm February 14, 2019. Envelopes submitted after the deadline will be returned unopened. Bids will be opened on February 15, 2019 at 12:00.

Bidder representatives can participate in the tender opening ceremony.

Tender Commission.

"AZERGOLD" QSC

AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender 1 lot üzrə keçirilir:
Lot 1 - Müxtəlif markalı generatorlar üçün servis xidmətinin satınalınması

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçılar lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə sərişteşinə və etibarlığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Rafiq Abdullayev, Tel: 012-505-02-02 (dax.1107), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

İştirak haqqı: Lot 1 - 200 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.
Hesab: AZ85PAHA38020AZNHC0190068658
VÖEN: 1403467421
Bank: "PAŞA Bank" ASC
Kodu: 505141
VÖEN: 1700767721
M/H: AZ82NABZ01350100000000071944
S.W.İ.F.T: PAHAAZ22

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;
7. Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər).

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 08 fevral 2019-cu il, saat 15.00-a qədər, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) 18 fevral 2019-cu il, saat 15.00-a qədər "AzerGold" QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı 19 fevral 2019-cu il saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

"AzerGold" QSC, Tender Komissiyası.

Kreditor "R Palace" MTK, borclu "Fərəh-G" MMC-nin (hüquqi ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Ak.Həsən Əliyev, ev 82C) müflis elan olunması ilə əlaqədar məhkəməyə ərizə ilə müraciət etmişdir. 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 23 noyabr 2018-ci il tarixli, 2-2(82)-797/2018 saylı qətnaməsi ilə Cəmiyyət müflis elan edilərək onun iflas prosesinə başlanılmış, "Ləğvetmə Agentliyi" (ünvan: AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat pr., 18/7, məhəllə 539) MMC əmlak inzibatçısı təyin edilmişdir. Debitor və kreditorlar (055) 255-42-98 nömrəli mobil telefonla əlaqə saxlaya bilərlər (Cəmiyyətin direktoru Vüsal Kazımzadə).

DTXK-nin Siyəzən rayon şöbəsi tərəfindən Sədan kənd sakini Muradov Əlişan Zəbiverdi oğlunun adına verilmiş JN-0056 (kod-30503018) mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN

Əmirxan Babaşov ailə üzvləri ilə birlikdə Mərkəzi Bankın İdarə Heyəti sədrinin müavini Aftandil Babayevə, qardaşı

NAZİM BABAYEVİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xalq Sözü" qəzetinin baş redaktoru Səməd İsmayılov və qəzetin kollektivi İmişli rayon ağsaqqalı Şükür Astanova, əzizi

MİRVARİ xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun kollektivi həmkarı Leyla Nuriyevaya, qardaşı

MAMED NURİYEVİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ərəstun Abdulov, Səlim Məhərrəmov, Mütəllim Bədirov, Allahverdi Əliyev, Qasım Qasımov, Bakir Əliyev, Nizami Məmmədov, Orucəli Qasımov "Azəravtoyol" ASC-nin Regional Yol Təmiri İdarəsinin rəisi, Prezident təqaüdçüsü Şükür Astanova, əzizi

MİRVARİ xanımın

vəfatından kədərləndiklərini bildirir və ona dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.

● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Müşfiq MİRZƏ

● Çapa imzalanmışdır
05.01.2019